**Azərbaycan Respublikası**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**

**S Ə R Ə N C A M I**

№ 33 25 aprel 2018-ci il

**Siyəzən Rayon İcra Hakimiyyəti üzrə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın müəyyən edilməsi barədə**

"Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanının 1 və 4-cü bəndlərinə və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndinə əsasən **qərara alıram:**

**1.** Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Siyəzən Rayon İcra Hakimiyyəti adından protokol tərtib etmək səlahiyyəti olan aşağıdakı vəzifəli şəxslər müəyyən edilsin:

1.1. Rayon İcra Hakimiyyətinin başçısı - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 190, 251.3, 197.1, 197.2, 413, 449, 516.0.2, 527, 530 və 532-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə;

1.2. Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsini 251.3, 413 və 449-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə;

1.3. Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 190, 197, 516.0, 516.0.2, 527, 530 və 532-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə;

1.4. Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 251.3 və 587-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə;

1.5. Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 190, 197.1 və 413-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə;

1.6. Rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 197.1, 251.3, 413, 449-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə;

1.7. Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qrumlarla işin təşkilatçısı - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 197, 413 və 516.0.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə;

1.8. Rayon İcra Hakimiyyəti başçısının şəhər, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələri - Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 190, 251.3, 413 və 516.0.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə.

**2.** Həmin vəzifəli şəxslərə tapşırılsın ki, Azərbaycan Respublikasının inzibati xətalar haqqında qanunvericiliyinin müvafiq tələblərinin müəyyən edilmiş səlahiyyətləri daxilində yerinə yetirilməsini təmin etsinlər.

**3.** Rayon İcra Hakimiyyəti başçısı aparatının İnformasiya təminatı və təhlili sektorunun müdiri Rəhman Mürvətova tapşırılsın ki, bu sərəncamın Rayon İcra Hakimiyyətinin rəsmi internet saytında yerləşdirilməsini təmin etsin.

**4.** Sərəncamın icrasına nəzarət Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Zəfər Əliyevə tapşırılsın.

**Asif Hüseynov**